Möcüzələr

# Palçıq vulkanları



**Təbiətin gözəl müəmması sayılan palçıq vulkanlarının sayına və müxtəlifliyinə görə Bakı və Abşeron yarımadası dünyada birinci yeri tutur.**

Yer kürəsinin müxtəlif məntəqələrində mövcud olan 800 məlum palçıq vulkanından 400-ü məhz cənubi Xəzər neft-qaz hövzəsi hüdudlarında, o cümlədən 300-dən çoxu Xəzər akvatoriyasında - dənizdə və çoxsaylı adalarda yerləşir. Dünyada mövcud olan palçıq vulkanlarının bütün müxtəlif növləri Abşeronda təmsil edilmişdir. Bu diyarı palçıq vulkanizminin təbii anbarı və laboratoriyası adlandırsaq mübaliğə olmaz. Palçıq vulkanları ölkəmizə gələn turistlərin də diqqətini çox cəlb edir. Bakıətrafı və Abşeronun çöllük və qayalıq landşaftı, onun vulkanları planetimizin gənclik dövrünü xatırladır. Abşeron vulkanları canlıdır və onlar daim nəfəs alır.

Azərbaycan.- 2020.-4 fevral.- S.10.